**Rəhmli, Mərhəmətli Allahın adı ilə!**

www.azerislam.com
PDFləşdirən:
www.kitablar.com
www.kitablar.org/

# QURBAN VƏ ONUN HÖKMLƏRİ

1. **Qurban kəsməyin ibadət olduğuna dair dəlillər:**

«Rəbbin üçün namaz qıl və qurban kəs!» («əl-Kövsər» surəsi, 2-ji ayə)
«De ki: «Mənim namazım da, kəsdiyim qurban da, həyatım və ölümüm də aləmlərin Rəbbi Allah üçündür». («əl-Ən'am» surəsi, 162-ji ayə)
«Biz hər bir ümmət üçün bir qurbangah müəyyən etdik ki, Allahın onlara ruzi verdiyi dördayaqlı heyvanların üstündə (onları kəsdikləri zaman) Allahın adını çəksinlər («bismilləh» desinlər) » ( «əl-Həjj» surəsi, 34-jü ayə)

Ənəs ibn Malikdən (Allah ondan razı olsun!) rəvayət olunan hədisdə Peyğəmbər (Ona və ailəsinə Allahın xeyir-bərəkəti və salamı olsun!) demişdir: «Bayram namazından sonra qurban kəsən ibadətini tamamlamış və müsəlmanların sünnəsinə (yoluna) əməl etmişdir». (əl-Buxari, 5546-jı hədis).

2. **Qurbanın tərifxi:**

Qurban bayramı münasibətilə qurban günlərində (zil-hijjə ayının 10-u, 11-i, 12-si və 13-ü) ibadət məqsədilə kəsilən heyvan.

3. **Qurbanın hökmü:** Təkid olunmuş (vajibə yaxın olan) sünnədir (müstəhəb əməldir).

4. **Qurban kəsilməsinin ijra vaxtı:**

Ay təqvimi ilə zil-hijjə ayının 10-u bayram namazından sonra başlayıb zil-hijjənin 13-ü gün batana qədərdir.

Qeyd: Qurbanı bu günlər əsnasında gejə vaxtı da kəsmək olar.

5. **Qurbanlıq mal-qara:**

Dəvə, öküz, keçi, qoç və ya qoyun.

Qeyd: 7 nəfxər və bundan az pul qoyub 1 dəvə və ya 1 öküz kəsə bilər. Bu halda həmin qurbanlığın alınması üçün pul qoyan şəxslərin 7-si də qurban kəsmiş sayılır. Keçi, qoç və qoyun isə yalnız bir nəfxərin pulu ilə kəsilməlidir.

6. **Qurbanın qəbul olunmasının iki şərti:**

a) İxlas: yəni, bu ibadət yalnız Allah üçün olmalı;

b) Mutabəə: yəni, Peyğəmbərin (Ona və ailəsinə Allahın xeyir-bərəkəti və salamı olsun!) etdiyi kimi olmalıdır.

7. **Kəsilən qurbanlıq üçün qoyulan şərtlər:**

a) qurbanlıq heyvan halal pul ilə alınmalıdır;

b) şəriətin göstərdiyi heyvan jinsindən olmalıdır. (yəni, xoruz, dovşan və s. olmamalıdır;

v) kəsilən heyvanın yaşı nəzərə alınmalıdır, yəni:

- dəvə:  5 illik;
- öküz:  2 illik;
- keçi:  1 ilik;
- qoç və ya qoyun:  6 aylıq.

Qeyd etmək lazımdır ki, yuxarıda göstərilənlərdən də çox yaşı olan heyvanı qurban kəsmək olar.

q) kəsilən heyvanlarda təkgözlük, axsaqlıq, xəstəlik, zəifxlik və arıqlıq kimi eyiblər olmamalıdır.

8. **Qurban kəsilərkən riayət olunan şərtlər:**

- qurban həddi-büluğa çatmış, ağlı başında olan şəxs tərəfxindən kəsilməlidir;
- qurban kəsən şəxs müsəlman və ya kitab əhlindən (yəhudi və ya xristian) olmalıdır;
- qurbanı kəsmək üçün niyyət olmalıdır;
- qurban yalnız Allah üçün kəsilməlidir;
- qurban kəsdikdə Allahın adı çəkilməli, yəni «bismilləh» deyilməlidir;
- qurban Allahdan qeyrisinin adı ilə kəsilməməlidir;
- qurban, kəsiji iti alətlə kəsilməlidir;
- qurban şəriətin buyurduğu yerdən kəsilib qanı axıdılmalıdır;
- qurbanlıq heyvan şəriətin ijazə verdiyi heyvanlardan olmalıdır;

Qeyd: Bu şərtlərdən birinə riayət olunmazsa qurban qəbul olunmur.

9. **Qurban kəsildikdə riayət edilən müstəhəb (bəyənilən) əməllər:**

- qurbanı qibləyə tərəfx döndərmək;
- qurbanı səliqəli və rahat şəkildə kəsmək;
- dəvəni ayaq üstə, öküz və qoçu isə uzanan yerdə kəsmək;
- bıçağı kəsilən heyvana göstərməmək;
- «bismilləh» dedikdən sonra «Allahu Əkbər» demək;
- qurbanın qəbul olunması üçün dua etmək;
- qurbanın kim tərəfxindən kəsildiyini dillə tələfxfxüz etmək;

Qeyd: Bu əməllərdən hər hansı birini tərk etmək qurbanı batil etmir.

10. **Qurban kəsildikdə təsadüfx olunan məkruh (bəyənilməyən) əməllər:**

- bıçağı heyvana göstərmək və ya onun gözünün qabağında itiləmək;
- bir heyvanın gözünün qabağında o birisini kəsmək;
- kəsilmiş heyvanın janı çıxmamaış hər hansı bir əzasını sındırmaq və s. bu kimi əməllərlə heyvana əziyyət vermək;

Qeyd: bu əməllərdən hər hansı birini etmək qurbanı batil etmir.

11. **Qurban ilə əlaqəli digər məsələlər:**

- Bayram namazının günü və vaxtı: miladi təqvimlə 1 Fevral 2004-jü il, yerli vaxtla səhər saat 9:00 ;
- Qurban kəsilən sonunju gün: 4 fxevral 2004-jü il (günbatana qədər);
- Sübh namazından bayram namazına qədər təkrarlanan dua: «Allahu əkbər, Allahu əkbər, Allahu əkbər, lə iləhə illəllah, Allahu əkbər, Allahu əkbər və lilləhil-həmd». Bu duanı hər kəs, jamaatla (xorla) deməmək şərtilə, özü-özlüyündə təkrarlamalıdır;
- Bayram namazı üçün azan və iqamə oxunmur;
- Bayram xütbəsi namazdan sonra olur;

Allahdan Onun üçün etdiyimiz ibadətləri bizdən qəbul etməsini istəyir və Peyğəmbərimiz Məhəmmədə, onun ailəsinə, səhabələrinə və yaxşı işlərdə onların yolunu tutanlara Allahın xeyir-bərəkətini və salamını diləyirik!